# MEBEL ÜÇÜN METAL VƏ PLASTİK AKSESUARLARIN, MEXANİZMLƏRİN İSTEHSALI.

Daxili bazar araşdırması

KOBİA



“İnnovativ Traninings ” MMC
VÖEN: 1806732181

# XÜLASƏ

"Mebel üçün metal və plastik aksesuarların, mexanizmlərin istehsalı" sahəsi üzrə daxili bazar araşdırmasının aparılması Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin təşəbbüsü ilə həyata keçirilir.

Araşdırmanın məqsədi Azərbaycan bazarında mebel sənayesində istifadə olunan metal və plastik aksesuarların, eləcə də müxtəlif funksional mexanizmlərin (menteşələr, sürgülər, qaldırıcı sistemlər, birləşdirici elementlər və s.) yerli istehsal səviyyəsinin öyrənilməsidir.Araşdırmanın hədəfləri aşağıdakı istiqamətləri əhatə edir:

- **İstehsalçılar və bazar həcmi**
- **Texnologiya və xammal təminatı**
- **Rəqabət mühiti**
- **Bazar tendensiyaları və inkişaf imkanları**

Araşdırmanın əsas məlumat mənbələri Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Dövlət Gömrük Komitəsi, TradeMap bazası və yerli istehsalçılar arasında aparılmış sorğulardır. Bununla belə, mebel üçün metal və plastik aksesuarların, mexanizmlərin istehsalı üzrə ayrıca statistik göstəricilər mövcud olmadığından, bazar həcminin dəqiq hesablanması mümkün olmamışdır. Bu səbəbdən bazarın ölçüsü idxal və ixrac göstəriciləri, həmçinin sorğu nəticələri əsasında dolayı şəkildə qiymətləndirilmişdir.

# MÜNDƏRİCAT

**Mebel üçün metal və plastik aksesuarların, mexanizmlərinin təsnifatı _ _ _ _ _ _ _ _ _ _4**

**Azərbaycanda mebel üçün metal və plastik aksesuarların, mexanizmlər sənayesinin mövcud vəziyyəti _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 5**

**3.Mebel üçün metal və plastik aksesuarların və mexanizmlərinin idxal-ixrac statistikası _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _8**

**4.Qlobal miqyasda mebel üçün aksesuarların və mexanizmlərin əsas idxalçıları _ _ _24**

**5.Bazar iştirakçıları ilə sorğunun nəticələri _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 30**

**6.Mebel üçün metal və plastik aksesuarların, mexanizmlər bazarının SWOT təhlili _ 36**

**7.Dövlət siyasəti və dəstək mexanizmləri_ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ 38**

**8.Nəticə və tövsiyələr _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _ _40**

# MEBEL ÜÇÜN METAL VƏ PLASTİK AKSESUARLARIN, MEXANİZMLƏRİNİN NÖVLƏR ÜZRƏ TƏSNİFATI

**830130** Qiymətsiz metallardan mebellərdə istifadə olunan qıfıllar.

**830242** Qiymətsiz metallardan mebellərdə istifadə olunan bərkidici armatur və furniturlar.

**830210** Qiymətsiz metallardan şarnirlər.

**830260** Qiymətsiz metallardan qapıların bağlanması üçün avtomatik qurğular.

**830220** Qiymətsiz metallardan mebel təkərləri.







# MEBEL ÜÇÜN METAL VƏ PLASTİK AKSESUARLARIN, MEXANİZMLƏR İSTEHSALININ MÖVCUD VƏZİYYƏTİ

Rəsmi statistikada mebel üçün metal və plastik aksesuarlar, mexanizmlər ayrıca alt-seqment kimi ayrılmır. Aksesuar və mexanizmlərə tələbat isə birbaşa mebel istehsalının həcmi ilə formalaşan sahədir. Yəni hər istehsal olunan mebel müəyyən sayda menteşə, sürgü, rels, qaldırıcı sistem, birləşdirici element və s. tələb etdiyinə görə, mebel məhsullarının artım dinamikası aksesuar bazarının inkişafını qiymətləndirmək üçün baza göstərici rolunu oynayır. Bu səbəbdən, məlumat məhdudluğu şəraitində mebel sənayesinin göstəricilərinə baxmaq aksesuar alt-seqmentinin kəmiyyət qiymətləndirilməsi üçün iqtisadi cəhətdən əsaslandırılmış dolayı yanaşma hesab olunur.







*Fəaliyyət göstərən müəssisələrin sayı, vahid

- 2024-cü ildə mebel sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi ötən illə müqayisədə 30% artaraq 397.8 milyon manat olmuşdur;
- Son 5 ildə ildə isə (2020-2024) bu sənayə sahəsi orta hesabla 3.34 dəfə artım nümayiş etdiribdir;
- Mebel istehsalı sahəsində fəaliyyət göstərən müəssisələrin sayında isə 2023-cü illə müqayisədə 2024-cü ildə 25.8% artım qeydə alınıbdır;

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az/source/industry/**

- İllər üzrə dinamikaya əsasən demək olar ki, qeyri-dövlət müəssisələri bu sahədə əsas paya malikdir;
- Mebel istehsalı üzrə qeydə alınmış fərdi sahibkarların sayında isə ötən dövrlə müqayisədə 2024-cü ildə 5.9% artım qeydə alınmışdır;
- Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı 2023-cü illə müqayisədə 2024-cü ildə 0,5%-dən 0,6%-ə yüksələrək 0,1 faiz bəndi və ya 20% artmışdır.

2020-2024-cü illər üzrə aparılan təhlil göstərir ki, mebel sənayesi artım tempini nümayiş etdirən bir sahədir. İllər üzrə dinamikaya əsasən sahədə əsas payın qeyri-dövlət müəssisələrinin əlində cəmləşməsi mebel sənayesinin inkişafında özəl sektorun aparıcı rol oynadığını göstərir. Lakin mebel sənayesinin ölkədə istehsal olunmuş ümumi sənaye məhsulunda payı hələ kiçik olsa da, tədricən artdığını və gələcəkdə daha böyük potensiala malik ola biləcəyini göstərir.

# MEBEL AKSESUARLARININ VƏ MEXANİZMLƏRİNİN İDXAL-İXRAC STATİSTİKASI.

İdxal-ixrac statistikası HS kodları əsasında toplanmışdır.

## MEBEL AKSESUARLARI VƏ MEXANİZMLƏRİNİN İDXAL STATİSTİKASI

| Malın kodu | Malın adı | Ölçü vahidi | 2022 | | 2023 | | 2024 | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | miqdarı | məbləği | miqdarı | məbləği | miqdarı | məbləği |
| 830130 | Qiymətsiz metallardan mebellərdə istifadə olunan qıfıllar | ton | 27.67 | 123.81 | 34.72 | 153.69 | 48.85 | 277.74 |
| 830210 | Qiymətsiz metallardan şarnirlər | ton | 1757.06 | 5986.83 | 1838.62 | 7521.89 | 1963.99 | 8760.02 |
| 830220 | Qiymətsiz metallardan mebel təkərləri | ton | 226.81 | 538.4 | 248.98 | 630.89 | 87.58 | 290.17 |
| 830242 | Qiymətsiz metallardan mebellərdə istifadə olunan bərkidici armatur və furniturlar | ton | 3402 | 9369.48 | 4088.74 | 11913.64 | 4764.12 | 13012.94 |
| 830260 | Qiymətsiz metallardan qapıların bağlanması üçün avtomatik qurğular | ton | 180.69 | 636.29 | 137.23 | 1202.26 | 157.62 | 1061.77 |
| Cəmi | | | 5594.23 | 16654.81 | 6348.29 | 21422.37 | 7022.16 | 23402.64 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" - 2022, 2023, 2024-cü illər üzrə Bülletenlər https://www.stat.gov.az/source/trade/




İllər üzrə idxal olunan metal aksesuarlarının və mexanizmlərinin bir tonunun qiyməti isə aşağıdakı kimi olmuşdur:



| Malın kodu | Malın adı | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|
| 830130 | Qiymətsiz metallardan mebellərdə istifadə olunan qıfıllar | 4.474521 | 4.4265553 | 5.68556807 |
| 830210 | Qiymətsiz metallardan şarnirlər | 3.4073 | 4.09105198 | 4.46031803 |
| 830220 | Qiymətsiz metallardan mebel təkərləri | 2.373793 | 2.53389831 | 3.31319936 |
| 830242 | Qiymətsiz metallardan mebellərdə istifadə olunan bərkidici armatur və furniturlar | 2.754109 | 2.91376806 | 2.73144673 |
| 830260 | Qiymətsiz metallardan qapıların bağlanması üçün avtomatik qurğular | 3.521446 | 8.76091234 | 6.73626443 |



Mənbə: Mənbə: müəllif tərəfindən hesablanmışdır

- Mebel aksesusarları və mexanizmlərinin idxal dinamikasında 2022-2024-cü illər üzrə ümumilikdə artım tempi müşahidə olunubdur;
- 2022-ci illə müqayisədə 2024-cü ildə sənaye sahəsində 25.5%, dəyər ifadəsində isə 40.5% artım qeydə alınıbdır. Bu o deməkdir ki, həm fiziki həcmlər böyüyüb, həm də 1 ton üçün orta qiymət artıb. Eləcə də 2022-2023-cü illərdə idxalın həcmi 13.5%, 2023-2024-cü illərdə isə 10.6% artım olmuşdur.
- Məhsul strukturunda isə həm miqdar, həm də dəyər ifadəsində bərkidici armatur və furniturlar (müvafiq olaraq 67.8% - 55.06%), eləcə də şarnirlər (müvafiq olaraq 28%-37.4%) əsas paya malikdir.
- Qiymət dinamikasında isə 2022-2024-cü illərdə idxal olunan mebel aksesuarlarının bir tonuna düşən qiymətlər artım tendensiyası nümayiş etdiribdir. Əsas artım isə qiymətsiz metallardan qapıların bağlanması üçün avtomatik qurğularda (91%) olmuşdur.

Mebel aksesuarlarının idxalında 2022-2024 dövründə həm həcmin, həm də dəyərin artması, xüsusən də əsas komponentlər üzrə ton başına qiymətlərin yüksəlməsi göstərir ki, sektor həm tələbin artması, həm də xaricdən gələn xərc təzyiqləri ilə qarşı-qarşıyadır.

# Mebel aksesuarları və mexanizmlərinin ixrac statistikası

| Malın kodu | Malın adı | Ölçü vahidi | 2022 | | 2023 | | 2024 | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | miqdarı | məbləği | miqdarı | məbləği | miqdarı | məbləği |
| 830130 | Qiymətsiz metallardan mebellərdə istifadə olunan qıfıllar | ton | - | 0.04 | - | - | 0.13 | 2.68 |
| 830210 | Qiymətsiz metallardan şarnirlər | ton | 32.78 | 675.71 | 84.7 | 1561.47 | 128.35 | 2327.96 |
| 830220 | Qiymətsiz metallardan mebel təkərləri | ton | - | - | 0.1 | 5.26 | 0.13 | 6.5 |
| 830242 | Qiymətsiz metallardan mebellərdə istifadə olunan bərkidici armatur və furniturlar | ton | 31.7 | 271.92 | 217.73 | 1768.63 | 183.43 | 1395.23 |
| 830260 | Qiymətsiz metallardan qapıların bağlanması üçün avtomatik qurğular | ton | - | - | 0.02 | 10.17 | 7.82 | 111.7 |
| Cəmi | | | 64.48 | 947.67 | 302.55 | 3345.53 | 319.86 | 3844.07 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, “Azərbaycanın xarici ticarət əlaqələri” - 2022, 2023, 2024-cü illər üzrə Bülletenlər https://www.stat.gov.az/source/trade/






İllər üzrə ixrac olunan metal aksesuarlarının və mexanizmlərinin bir tonunun qiyməti isə aşağıdakı kimi olmuşdur:

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" - 2022, 2023, 2024-cü illər üzrə Bülletenlər https://www.stat.gov.az/source/trade/

## Mebel aksesuarları və mexanizmlərinin ixrac statistikası

| Malın kodu | Malın adı | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|
| 830130 | Qiymətsiz metallardan mebellərdə istifadə olunan qıfıllar | - | - | 20.61538 |
| 830210 | Qiymətsiz metallardan şarnirlər | 20.61348 | 18.4353 | 18.13759 |
| 830220 | Qiymətsiz metallardan mebel təkərləri | - | 52.6 | 50 |
| 830242 | Qiymətsiz metallardan mebellərdə istifadə olunan bərkidici armatur və furniturlar | 8.577918 | 8.123042 | 7.606335 |
| 830260 | Qiymətsiz metallardan qapıların bağlanması üçün avtomatik qurğular | - | 508.5 | 14.28389 |

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" - 2022, 2023, 2024-cü illər üzrə Bülletenlər https://www.stat.gov.az/source/trade/

- Mebel aksesuarları və mexanizmlərinın ixracında miqdar ifadəsində təxminən 5 dəfə, dəyər ifadəsində isə 4 dəfə artım olsa da, 2022-ci ildəki ixracın həcmi çox kiçik olduğu üçün bu artım ciddi təsir gücünə malik deyil. 2023-cü illə müqayisədə isə 2024-cü ildə miqdar ifadəsində 5.7%, dəyər ifadəsində isə 14.9% artım qeydə alınmışdır.
- Məhsul strukturunda isə idxalda olduğu kimi ixracda da bərkidici armatur və furniturlar (57.3%), eləcə də şarnirlər (40.1%) əsas paya malikdir.
- Qiymət dinamikasında isə azalma qeydə alınıbdır.
- İxrac əsasən 2 mal qrupu hesabına artır ki, bu da qısamüddətli dövrdə üstünlük versə də, orta müddətdə məhsul diversifikasiyasını zəruri edir.
- Həcm artımı ilə yanaşı vahid qiymətin aşağı düşməsi onu göstərir ki, Azərbaycan daha çox həcm üzrə rəqabət aparır.

# AZƏRBAYCANIN ÖLKƏLƏR ÜZRƏ İDXAL-İXRAC ƏMƏLİYYATLARI

## 2022-cü ildə ölkələr üzrə idxal, tonla




## 2022-ci ildə ölkələr üzrə ixrac, tonla




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" - 2022-ci il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/

# AZƏRBAYCANIN ÖLKƏLƏR ÜZRƏ İDXAL-İXRAC ƏMƏLİYYATLARI

## 2023-cü ildə ölkələr üzrə idxal, tonla




## 2023-cü ildə ölkələr üzrə ixrac, tonla




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, “Azərbaycanın xarici ticarət əlaqələri” - 2023-ci il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/

# AZƏRBAYCANIN ÖLKƏLƏR ÜZRƏ İDXAL-İXRAC ƏMƏLİYYATLARI

## 2024-cü ildə ölkələr üzrə idxal, tonla




## 2024-cü ildə ölkələr üzrə ixrac, tonla




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" - 2024-ci il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/

# MƏHSULLAR ÜZRƏ İDXAL-İXRAC STATİSTİKASI

## 2024-cü ildə 8301300000 - qiymətsiz metallardan mebellərdə istifadə olunan qıfıllar üzrə

### İdxal, min ABŞ dolları




**2022-ci ildə qiymətsiz metallardan mebellərdə istifadə olunan qıfıllar üzrə ixrac yalnız Türkiyə 2.68 min ABŞ dollar həcmində olmuşdur.**

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, “Azərbaycanın xarici ticarət əlaqələri” - 2024-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/

# 2024-cü ildə 830210000 - qiymətsiz metallardan şarnirlər üzrə

## İdxal , min ABŞ dollar




## İxrac, min ABŞ dolları




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" - 2024-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/

## 2024-cü ildə 830220000 - qiymətsiz metallardan mebel təkərləri üzrə

### 2024-cü il idxal, min ABŞ dolları




**2024-cü ilə ixrac yalnız Qırğızıstan (6.47 min ABŞ dollar) və Gürcüstana (0.03 min ABŞ dollar) olubdur.**

**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" - 2024-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/**

## 2024-cü ildə 830242000 - qiymətsiz metallardan mebellərdə istifadə olunan bərkidici armatur və furniturlar üzrə

### İdxal, min ABŞ dolları




**2024-cü ilə ixrac yalnız Rusiya (1358.09 min ABŞ dollar) və Gürcüstan (37.14 min ABŞ dollar) olubdur.**

Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, “Azərbaycanın xarici ticarət əlaqələri” - 2024-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/

## 2024-cü ildə 830260000 - qiymətsiz metallardan qapıların bağlanması üçün avtomatik qurğular üzrə

**İdxal , min ABŞ dollar**




**İxrac, min ABŞ dolları**




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, "Azərbaycanın xarici ticarət əlaqələri" - 2024-cü il üzrə Bülleten https://www.stat.gov.az/source/trade/

# QLOBAL MİQYASDA MEBEL ÜÇÜN METAL VƏ PLASTİK AKSESUARLARIN, MEXANİZMLƏRİN ƏSAS İDXALÇILARI

**2024-cü ildə mebel üçün metal və plastik aksesuarların, mexanizmlər üzrə əsas bazar tələbatı yaradan idxalçılar:**




**830130 – qiymətsiz metallardan mebellərdə istifadə olunan qıfıllar üzrə:**

**min ABŞ dolları ifadəsində**

Mənbə: "Trade Map" Beynəlxalq ticarət statistikası portalı https://www.trademap.org/Index.aspx

## 830210 – qiymətsiz metallardan şarnirlər




Mənbə: “Trade Map” Beynəlxalq ticarət statistikası portalı https://www.trademap.org/Index.aspx

# 830220 – qiymətsiz metallardan mebel təkərləri




Mənbə: "Trade Map" Beynəlxalq ticarət statistikası portalı https://www.trademap.org/Index.aspx

## 830242 – qiymətsiz metallardan mebellərdə istifadə olunan bərkidici armatur və furniturlar




Mənbə: "Trade Map" Beynəlxalq ticarət statistikası portalı https://www.trademap.org/Index.aspx

## 830260 – qiymətsiz metallardan qapıların bağlanması üçün avtomatik qurğular




**Bu ölkələr mebel aksesuarları və mexanizmlərinin əsas idxalçıları olsalar da, Azərbaycan istehsalçıları üçün uyğun bazarları seçmək daha məqsədəuyğundur. Burada da əsas uyğunluq meyarları kimi logistika, texniki baryerlər və sertifikatlar, qiymət seqmenti, mövcud ticarət əlaqələri və s. göstərmək olar. Bu baxımdan MDB ölkələri, Türkiyə, Körfəz ölkələri, Şərqi Avropa bazarları və s. daha məqsədəuyğundur.**

**Mənbə: "Trade Map" Beynəlxalq ticarət statistikası portalı https://www.trademap.org/Index.aspx**

# ƏSAS BAZAR İŞTİRAKÇILARI

# İSTEHSALÇILARLA APARILAN SORĞUNUN NƏTİCƏLƏRİ

**Son 3 il ərzində istehsal həcminin dinamikası**



# İSTEHSALÇILARLA APARILAN SORĞUNUN NƏTİCƏLƏRİ

**Məhsullarını ixrac edirsinizmi?**




**Son 3 ildə ixrac həcminin dinamikası**



# İSTEHSALÇILARLA APARILAN SORĞUNUN NƏTİCƏLƏRİ

### Avadanlıqların texnoloji səviyyəsi




### İstehsalın avtomatlaşdırma səviyyəsi



# İSTEHSALÇILARLA APARILAN SORĞUNUN NƏTİCƏLƏRİ

**Xammalın təminat mənbəyi**






- Ölkədə fəaliyyət göstərən müəssisələrin əsas müştəri seqmentini dövlət sifarişləri, tenderlər və pərakəndə ticarət müəssisələri təşkil edir
- Respondentlərin fikrinə görə son 3 ildə istehsal həcmində böhran və ya bum yoxdur, amma stabil, az artımlı bir bazar görünür.
- İxrac coğrafiyası çox məhduddur və sabit deyil. Əsasən ABŞ və MDB bazarına yönəlibdir.
- İstifadə olunan avadanlıqlar əsasən xarici istehsal olub, Almaniya, İtaliya, Çin və Türkiyə istehsalına daha çox üstünlük verilir
- Ölkədə mebel aksesuarlarının və mexanizmlərin istehsal prosesi qismən avtomatlaşdırılıb və əsasən əl əməyindən istifadə olunur
- Xammal təminatında idxal məhsulları üstünlük təşkil etsə də, yerli məhsullardan da istifadə olunur. Əsas xammal təchizatçıları isə Rusiya, Belarus,Çin və Türkiyədir. Xammal qiymətlərinin çox dəyişkən olması isə istehsalçılar üçün əsas risklərdən biridir
- Xammalın bahalılığı, logistika və gömruk xərcləri müəssisələrə idxal olunan brendlərlə rəqabət aparmaqda çətinlik yaradan əsas amillərdir
- Sektorda rəqabətin əsas yükü yerli istehsalçıların üzərindədir, amma paralel olaraq idxal olunan (xüsusilə Türkiyə mənşəli) brendlər də ciddi təzyiq yaradır.

- Son 3 ildə bazarda ayrı-ayrı seqmentlər üzrə tələbatda həm artım, həm də azalma müşahidə olunmuş, daha çox rəqibin bazara daxil olması fonunda keyfiyyət tələbləri yüksəlmiş, yeni texnologiyalar tətbiq olunmuş, qiymətlər artmış və qiymət rəqabəti güclənmişdir.
- Bazar tendensiyası göstərir ki, son illərdə yüngül materiallardan istifadə, dizaynın getdikcə daha çox minimalizmə yönəlməsi və məhsul keyfiyyətinin yüksəlməsi ilə bağlıdır. Bununla yanaşı, orqanik (ekoloji) boyalardan istifadə artıb və mebellərdə daha “smart” mexanizmlərin tətbiqi genişlənməkdədir.
- Müəssisələr öz fəaliyyətində qarşılaşdığı əsas problemlər əsasən yüksək xammal xərcləri, avadanlıq və texnologiyanın köhnəlməsi, peşəkar kadr çatışmazlığı və dövlət dəstəyinin kifayət qədər olmaması ilə yanaşı, bəzi hallarda bazarda tələbin zəifliyi və rəqabət mühitinin qeyri-bərabərliyi ilə bağlıdır.
- Respondentlərin fikrincə bu sahənin inkişaf etməsi üçün əsasən güzəştli kreditlər və maliyyələşmə, vergi və gömrük güzəştləri, müasir avadanlığın alınmasına dövlət dəstəyi, xammal təchizatının lokallaşdırılması üçün təşviqlər, həmçinin ixracın təşviqi, texniki standartlar və sertifikatlaşma sahəsində dəstək və peşəkar kadr hazırlığı və təlimlərin gücləndirilməsini ən vacib dövlət mexanizmləridir

# MEBEL ÜÇÜN METAL VƏ PLASTİK AKSESUARLARIN, MEXANİZMLƏRİN İSTEHSALI” SAHƏSİNİN ÜZRƏ SWOT TƏHLİLİ




## GÜCLÜ TƏRƏFLƏRİ

- Yerli mebel istehsalının daxili bazar tələbatının ödənilməsində əhəmiyyətli yer tutması ölkədə buraxılan aksesuar və mexanizmlər üçün sabit tələbat formalaşdırır
- Dövlət dəstəyi və sənaye məhəllələrinin olması – məsələn, Masallı sənaye məhəlləsində mebel və aksesuarlarının istehsalı üçün infrastrukturun yaradılması
- Qeyri-dövlət müəssisələrinin üstünlük təşkil etməsi çevik və bazar yönümlü inkişafı stimullaşdırır
- İdxalda şarnirlər və bərkidici armatur-furniturlar birlikdə 95% paya malikdir. Bu, ixtisaslaşma və hədəfli istehsal üçün imkan yaradır
- Ekoloji və texnoloji tendensiyalara uyğunlaşma (ağıllı mexanizmlər, orqanik boyalar və minimalizm dizaynına keçid bazar uyğunluğunu artırır)

## ZƏİF TƏRƏFLƏRİ

- Aksesuar və mexanizmlərə dair ayrıca statistik göstəricilər mövcud deyil. Bu, sektorun ölçülməsi və planlaşdırılmasını çətinləşdirir
- Xammal təminatının idxaldan asıllığın olması qiymət dəyişkənliyi müəssisələr üçün risk yaradır
- İstehsal qismən avtomatlaşdırılıb, əsasən əl əməyindən istifadə olunur. Bu, məhsuldarlığı və keyfiyyəti azaldır
- İxrac sabit olmayıb məhdud coğrafi miqyasa malikdir.
- Xammal qiymətləri, logistika və gömrük xərcləri səbəbindən idxal olunan (xüsusilə Türkiyə mənşəli) brendlərlə rəqabət aparmaq çətindir
- Peşəkar mütəxəssislərin çatışmazlığı və texnologiyanın köhnəlməsi istehsal keyfiyyətinə və inkişaf tempinə mənfi təsir edir

| İMKANLAR | TƏHLÜKƏLƏR |
|---|---|
| • İdxalın həcminin artması tələbatın olmasını, bu isə yerli istehsal üçün boşluq və bazar imkanı şərtləndirir<br>• Xammal və avadanlığın yerli təminatı üçün təşviqlər yerli istehsalın maya dəyərini azalda və dayanıqlılığı artıra bilər.<br>• ixtisaslaşma ixrac gücünü artıra bilər (məsələn, bərkidici armatur və şarnirlər üzrə)<br>• Yüngül materiallar, "smart" sistemlər və ekoloji trendlər yeni məhsul xəttlərinin inkişafı üçün fürsətdir | • idxal olunan məhsullar həm qiymət, həm də keyfiyyət baxımından ciddi təzyiq yaradır<br>• Qiymət artımı ilə yanaşı qiymət rəqabətinin də güclənməsi, gəlir marjını azalda bilər<br>• Rəqabət mühitində bərabərsizlik istehsalçıların stabil inkişafını ləngidə bilər<br>• Texnoloji modernləşmənin olmaması orta və uzunmüddətli dövrdə rəqabət qabiliyyətini zəiflədə bilər |



# DÖVLƏT SİYASƏTİ VƏ DƏSTƏK MEXANİZMLƏRİ

Dövlət tərəfindən ayrıca mebel aksesuarları və mexanizmlərinin istehsalı üçün dəstək tədbirləri, proqramlar olmasa da, qeyri-neft sənayesinin inkişafı üçün tətbiq olunan bir sıra dəstək proqramları və mexanizmlərdən bu sahənin subyektləri də faydalana bilərlər. Bura aiddir:

- sənaye parkları və məhəllələrinin rezidenti kimi qeydiyyatdan keçərək 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunma;
- eləcə də, qeyd olunanlarla yanaşı işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlar xüsusi güzəştli bank kreditləri (90%-dək dövlət zəmanəti, 10% subsidiya), kommunal ödənişlərinə 20% kəşbək, dividend gəlirlərində vergidən azadolma, sosial sığorta ödənişləri üzrə dövlət subsidiyası, mənfəətin və kapitalın repatriasiyasının vergidən tam azadolması, xammal idxalında gömrük və ƏDV güzəştləri və s.

- **“İnvestisiya təşviqi sənədi” ilə 7 il müddətində mənfəət və gəlirin 50%, əmlak və torpaq vergisindən, həmçinin idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə idxalda ƏDV-dən və idxal rüsumlarından azad olma;**
- **KOBİA tərəfindən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul və xidmətlərini tanıtmaq və bu yolla onların satış imkanlarını genişləndirmək üçün ödənişsiz biznes təlimlər, informasiya və məsləhət xidməti, biznes planın hazırlanmasına, KOB-ların beynəlxalq ixtisasartırma proqramında iştirakına, yerli və xarici ölkələrdə ixtisaslaşmış sərgilərdə iştiraka dəstək, qrant layihələri, daxili bazar araşdırmalarının maliyyələşməsi, “Startap” şəhadətnaməsinin verilməsi və s.**
- **Sahibkarlığın İnkişafı Fondu tərəfindən aşağı faizli, uzunmüddətli güzəştli kreditlərin verilməsi.**

# NƏTİCƏ

Bazar araşdırması göstərir ki, 2020-2024-cü illərdə Azərbaycanda mebel sənayesi ümumilikdə yüksələn xətt üzrə inkişaf edir. Belə ki, istehsal həcmi son 5 ildə orta hesabla 3,34 dəfə artıb, təkcə 2024-cü ildə əvvəlki illə müqayisədə 30%-lik artım qeydə alınıb. 2022-2024-cü illərdə mebel aksesuarları və mexanizmləri üzrə idxalın həcmində həm fiziki, həm də dəyər ifadəsində müvafiq olaraq 25.5% və 40.5% artım qeydə alınıbdır. Xüsusilə şarnirlər və bərkidici armatur-furniturlar həm həcm, həm də dəyər baxımından bazarda dominant paya malikdir. İxrac göstəricilərində faiz ifadəsində artım olsa da, çox aşağı olması səbəbindən hələ ki, bu artım struktur dəyişiklik yarada biləcək səviyyədə deyil. İxrac da əsasən 2 məhsul qrupu (şarnirlər və bərkidici armatur-furniturlar) və məhdud coğrafiya hesabına formalaşır. Bu, tam eyni templə olmasa da, mebel istehsalındakı genişlənmənin aksesuar bazarına müsbət və mütənasib təsir etdiyini göstərir.

Sorğu nəticələri və SWOT təhlili onu göstərir ki, sektorun güclü tərəfləri olsa da, zəif tərəfləri və təhlükələr də var. Lakin dövlətin KOB dəstəyi alətlərindən istifadə olunduğu halda sektorun həm daxili bazarın daha böyük hissəsini təmin etməsi, həm də region ölkələrinə ixracı genişləndirməsi üçün kifayət qədər potensial mövcuddur.

# TÖVSİYƏLƏR

- **İdxal-ixracda əsas paya malik olan şarnirlər və bərkidici armatur-furniturlar üzrə (830210, 830242) ixtisaslaşma, yəni daha çox ölçü, model, dizayn çeşidi hazırlamaq, korroziyaya davamlı, yüngül və dayanıqlı məhsullar, "smart" (yavaş bağlanan menteşələr, qaldırıcı sistemlər, tənzimlənən mexanizmlər) və funksional aksesuarlar üzrə məhsul xəttinin genişləndirilməsi;**
- **İstehsal prosesində mərhələli şəkildə avtomatlaşdırma səviyyəsini artırmaqla həm məhsuldarlığı, həm də keyfiyyət sabitliyinin yüksəldilməsi;**
- **Dövlətin dəstək alətlərindən (sənaye parkları/məhəllələri rezidentliyi, investisiya təşviqi sənədi, güzəştli kreditlər) istifadə etməklə avadanlıqların yenilənməsi üçün sərmayənin cəlb edilməsi;**

# TÖVSİYƏLƏR

- Xammal tədarükündə asılılığı azaltmaq üçün bir neçə ölkəyə və təchizatçıya paralel çıxış formalaşdırmaq, uzunmüddətli müqavilələr və birgə (assosiasiya və ya klaster daxilində) toplu alış mexanizmləri tətbiq etməklə qiymət dəyişikliyi riskini azaltmaq;
- Keyfiyyət idarəetmə standartlarını tətbiq etməklə məhsulları beynəlxalq texniki standartlara uyğunlaşdırmaq;
- Ekoloji boyalar, zərərsiz örtüklər və uzunmüddətli zəmanət kimi elementləri ön plana çıxarıb brend imicini "keyfiyyətli və təhlükəsiz məhsul" üzərində qurmaq;
- Kadr potensialının gücləndirilməsi üçün təcrübələrin gənc mütəxəssislərə ötürülməsi üçün daxili mentorluq və təlim sistemləri yaratmaq;
- Onlayn platformalar vasitəsilə məhsul kataloqu, texniki spesifikasiyaları və qiymət təkliflərini əlçatan etmək;
- Xammal qiymətlərinin sürətli dəyişməsi, valyuta dəyişkənliyi və logistika riskləri üçün əsaslı planlaşdırma aparmaq və xammal ehtiyatı siyasətini optimallaşdırmaq.

# DİQQƏTİNİZ ÜÇÜN TƏŞƏKKÜRLƏR!